# AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

## ƏMR

№ 3-ӘH-7

**Bakı şəhəri** "17" yanvar 2023 il

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi yanında İctimai şuranın seçki komissiyasının yaradılması haqqında**

"İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, Agentliyin fəaliyyətində aşkarlığın və şəffaflığın bərqərar edilməsi, habelə dövlət siyasətinin formalaşdırılması, icrası və qərarların qəbulu zamanı ictimai rəyin nəzərə alınmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.3-cü bəndini və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 5.5.10-cu yarımbəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Agentliyin yanında İctimai şura üzvlüyünə seçkilərin təşkili məqsədilə İctimai şuranın seçki komissiyası yaradılsın (siyahı əlavə olunur).

**2.** Komissiya İctimai şuraya seçkilərin təşkili ilə bağlı zəruri tədbirləri görsün.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi İctimai şura üzvlüyünə seçkilər barədə elanın Agentliyin rəsmi internet səhifəsi və mövcud olan digər vasitələrlə (kütləvi informasiya vasitələri, məlumat lövhəsi və s.) ictimailəşdirilməsini təmin etsin.

**4.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu əmrin surətinin aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**5.** Bu əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** Agentlik sədrinin müavini **Zəkiyyə Mustafayevanın** 2023-cü il 9 yanvar tarixli D2/14/000066 nömrəli xidməti məruzəsi.

ƏSLİ İLƏ DÜZDÜR

**Sədr** **Qoşqar Təhməzli**

17.01.2023.

**İctimai şuranın seçki komissiyasının tərkibi**

| | | |
|---|---|---|
| **Komissiyanın sədri** | | |
| | Balarəhim Quliyev | Sədr müavini |
| **Komissiyanın üzvləri** | | |
| **1** | Əkbər Əliyev | İdxal və ixraca nəzarət şöbəsinin müdiri |
| **2** | Mansur Piriyev | İnformasiya təminatı və innovativ həllər şöbəsinin müdiri |
| **3** | Ramazan Nəbiyev | Qida təhlükəsizliyi şöbəsinin müdiri |
| **4** | Nüsrəddin Nəsibov | "Ecoland Environmental Service" MMC - nin direktoru |
| **5** | Səkinə Babayeva | "Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası"nın İdarə Heyətinin sədri |
| **6** | Gündüz Osman | "Azərbaycan İnternet Forumu"nun prezidenti |
| **7** | Vüqar Eyvazov | "Sağlam Ailə" Tibb Mərkəzinin baş direktoru / Dermatovenerolog |
| **8** | Tutu Zeynalova | "Ailə və Ətraf Mühit" İctimai Birliyinin nümayəndəsi / Dietoloq |